

İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ
KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Aprel - 2018

iqtisadiislahat.org
info@ereform.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# “AZEXPORT” PORTALININ ƏHƏMİYYƏTİ ONDADIR Kİ, HƏM YERLİ İSTEHSALÇILAR ÖZ MƏHSULLARI BARƏDƏ MƏLUMATLARI BU SAYTDA YERLƏŞDİRİRLƏR, HƏM DƏ XARİCDƏN SİFARİŞLƏR GƏLİR”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün
sosial-iqtisadi inkişafının yekunlarına və
qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən



“İndi təhlil aparmaq üçün bizdə daha geniş imkanlar var. Çünki “Azexport” portalına daxil olan sifarişlər, əslində, marketinq üçün çox əhəmiyyətli bir vasitədir. Əvvəllər marketinqi xarici bazarlarda aparmaq üçün bizim belə imkanımız yox idi. Bu işlər daha çox kor-təbii görülürdü. Amma “Azexport” portalının əhəmiyyəti ondadır ki, həm yerli istehsalçılar öz məhsulları barədə məlumatları bu saytda yerləşdirirlər, həm də xaricdən sifarişlər gəlir. Təhlil apararkən görürük, bəzən elə sifarişlər gəlir ki, biz o sifarişləri tam yerinə yetirə bilmirik. Bu, dövlət qurumlarına və sahibkarlara yol göstərir ki, həmin sahələr inkişaf etməlidir”.

# MÜNDƏRİCAT


1 2018-ci ilin I rübündə qeyri-neft sektoru üzrə 356,4 milyon ABŞ dolları dəyarində ixrac olmuşdur ____ səh. 3

2 Qeyri-neft sektoru üzrə əsas ixracatçı şirkətlərin reytinqi ____ səh. 11

3 Azexport.az portalına 2018-ci ilin I rübündə 185,6 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 17

4 "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi fiziki və hüquqi şəxslərə xidmət göstərir ____ səh. 24

5 İxracatçılar Klubunun növbəti iclası keçirilmişdir ____ səh. 25

6 Bal ixracı ilə bağlı araşdırma aparılmışdır ____ səh. 26

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

**356, 4** 2018-ci ilin I rübündə qeyri-neft sektoru üzrə milyon ABŞ dolları dəyərində ixrac olmuşdur.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **35%** artmışdır.

2018-ci ilin I rübü ərzində qeyri-neft sektoru üzrə ixrac 356,4 milyon ABŞ dolları təşkil etmişdir. 2017-cı ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-mart aylarında qeyri-neft sektoru üzrə ixrac 35 faiz artmışdır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən cari ilin ilk 3 ayı ərzində ən çox qeyri-neft məhsullarımız Rusiya Federasiyasına ixrac edilmişdir (98,7 milyon ABŞ dolları).

2018-ci ilin I rübü ərzində ixrac olunan qeyri-neft sektoruna aid məhsullar arasında isə **elektrik enerjisi birinci (33,9 milyon ABŞ dolları), qızıl (30,9 milyon ABŞ dolları) ikinci, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (26,3 milyon ABŞ dolları) üçüncü olmuşdur**.

Həmçinin cari ilin yanvar-mart aylarında tomatın (pomidor) ixracı 24 milyon, qabığı təmizlənmiş meşə fındığının ixracı 23,7 milyon, xurmanın ixracı 19,1 milyon, pambıq lifinin (daranmaya məruz qalmamış) ixracı 13,3 milyon, alüminium ərintilərindən qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələrin ixracı 11 milyon, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağlarının ixracı 9,5 milyon, almanın ixracı 9 milyon ABŞ dolları təşkil etmişdir.

Ümumiyyətlə isə 2018-ci ilin I rübü ərzində meyvə-tərəvəzin

ixracı 80,7 milyon, elektrik enerjisinin ixracı 33,9 milyon, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 32,2 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 30,9 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 15,8 milyon, kimya sənayesi məhsullarının ixracı 12,4 milyon ABŞ dolları olmuşdur.

Qeyd edək ki, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin I rübündə elektrik enerjisinin ixracı 8,6 dəfə, meyvə-tərəvəzin ixracı 45,7 faiz, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 34,8 faiz, kimya sənayesi məhsullarının ixracı 29,5 faiz, pambıq ipliyinin ixracı 24,8 faiz, çayın ixracı 12,9 faiz, alüminium və ondan hazırlananməmulatlarınixracı4faizartmışdır.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən cari ilin mart ayında isə qeyri-neft sektoru üzrə ixrac 115 milyon ABŞ dolları təşkil etmişdir. **2018-ci ilin mart ayında qeyri-neft sektoruna aid ən çox mal Türkiyəyə ixrac edimişdir (32,2 milyon ABŞ dolları)**.

2018-ci ilin mart ayında qeyri-neft sektoru üzrə ixracda elektrik enerjisi (13,6 milyon ABŞ dolları) birinciliyini qorumuşdur. Bu siyahıda ikinci yeri tomat (9,3 milyon ABŞ dolları), üçüncü yeri isə qabığı təmizlənmiş meşə fındığı (8,3 milyon ABŞ dolları) tutmuşdur.

Cari ilin mart ayında xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilenin ixracı 7,9 milyon, qızılın (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda) ixracı 6,3 milyon, emal olunmamış aşqarlanmamış alüminiumun ixracı 4,6 milyon, alüminium ərintilərindən qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələrin ixracı 3,5 milyon, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağlarının ixracı 3,5 milyon, qara metallardan neft-qaz buruqlarının qazılması üçün qaynaq yeri olmayan digər nasos-kompressor borularının ixracı 3,4 milyon, pambıq lifinin (daranmaya məruz qalmamış) ixracı 3,3 milyon, mis və sink əsasında emal olunmamış ərintilərinin (latun) ixracı 2,9 milyon, almanın ixracı 2,6 milyon ABŞ dolları olmuşdur.

2018-ci ilin I rübü ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2018-Cİ İLİN **I RÜBÜNDƏ** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**

2018 İXRAC İCMALI APREL



RUSİYA
**98,7 milyon $**

TURKİYƏ
**97,6 milyon $**

İSVEÇRƏ
**33,8 milyon $**

GÜRCÜSTAN
**31,8 milyon $**

ÇİN
**11,9 milyon $**

**01/06** **2018**

01 02 03 04 05 06

# 2018-Cİ İLİN **MART AYINDA**
# QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**

2018
İXRAC İCMALI
APREL



TURKİYƏ
**32,2 milyon $**

RUSİYA
**31 milyon $**

GÜRCÜSTAN
**14,4 milyon $**

İSVEÇRƏ
**8,1 milyon $**

ÇİN
**4,3 milyon $**

# 2018-Cİ İLİN **I RÜBÜNDƏ** 2017-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUN AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI** (%-LƏ)



# AZƏRBAYCAN RESPUBLİKASINDAN İXRAC EDİLƏN BƏZİ MALLARIN **DÜNYA BAZARINDA QİYMƏTİ** (ABŞ dolları ilə)

## ALÜMİNİUM (1 TON)

2017-ci ilin mart ayı - **1901,5**
2018-ci ilin mart ayı - **2069,2**



## QIZIL (1 UNSİYASI)

2017-ci ilin mart ayı - **1231, 4**
2018-ci ilin mart ayı - **1324,6**



## ŞƏKƏR(1 TON)

2017-ci ilin mart ayı - **400**
2018-ci ilin mart ayı - **290**





## PAMBIQ LİFİ (1 TON)

2017-ci ilin mart ayı - **1910**
2018-ci ilin mart ayı - **2030**



## ÇAY(1 TON)

2017-ci ilin mart ayı - **2730**
2018-ci ilin mart ayı - **2650**



## 2018-Cİ İLİN **I RÜBÜNDƏ** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(Dəyəri milyon ABŞ dolları ilə)**





# 2018-Cİ İLİN **MART AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

**(Dəyəri milyon ABŞ dolları ilə)**



Elektrik enerjisi — **13,6**



Tomat — **9,3**



Fındıq ləpəsi — **8,3**



İlkin formalı polietilen — **7,8**



Qızıl — **6,6**



Emal olunmamış aşqarlanmamış alüminium — **4,6**



Alüminium ərintilərindən plitələr — **3,5**



Digər yağlar və yağ məhsulları — **3,5**



Nasos-kompressor boruları — **3,4**



Pambıq lifi — **3,3**



# 2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI ŞİRKƏTLƏRİN REYTİNQİ

## 2018-ci ilin I RÜBÜNDƏ qeyri-neft sektoru üzrə ƏSAS İXRACATÇI ŞİRKƏTLƏRİN REYTİNQİ

"İxrac İcmalı" tərəfindən 2018-ci ilin I rübündə qeyri-neft sektoru üzrə ixracla bağlı rəsmi statistik rəqəmlərin təhlili nəticəsində həm qeyri-dövlət, həm də dövlət şirkətlərinin reytinqi tərtib olunmuşdur. Qeyri-dövlət ixracatçı subyeklərin ilk onluğunda aşağıdakı şirkətlərin adları var: **"Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayən-dəliyi, "MKT İstehsalat Kommersiya" MMC, "Aqrodoctor" MMC, "Baku Steel Company" MMC, "Metalçılar-2" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, "CTS-Agro" MMC, "Sun Food" MMC, "Qlaf Drillinq Saplay FZE" şirkətinin Azərbaycan Respublikasındakı Filialı və "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC.**

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısında isə **ARDNŞ-in "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərenerji" ATSC, "Det-al Alüminium" MMC, "Azergold" QSC, "Azərbaycan Hava Yolları" QSC, "SOCAR Methanol" MMC, "Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC, "Qaz ixrac idarəsi", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və "Suraxanı Maşınqayırma Zavodu Törəmə" ASC.**

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İLK ONLUQDA TƏMSİL OLUNAN
# QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ



| | |
|---|---|
| "AZƏRBAYCAN İNTERNEYŞNL MAYNİNQ KOMPANİ LİMİTED ŞİRKƏTİ"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi | **26, 4 milyon** ABŞ dolları |
| "MKT İSTEHSALAT KOMMERSİYA" MMC | **10,7 milyon** ABŞ dolları |
| "AQRODOCTOR" MMC | **9,3 milyon** ABŞ dolları |
| "BAKU STEEL COMPANY" MMC | **8,8 milyon** ABŞ dolları |
| "METALÇILAR-2" MMC | **6,2 milyon** ABŞ dolları |
| "RAM BEYNƏLXALQ NƏQLİYYAT VƏ TİCARƏT LTD" MMC | **5,6 milyon** ABŞ dolları |
| "CTS-AGRO" MMC | **5,1 milyon** ABŞ dolları |
| "SUN FOOD" MMC | **5 milyon** ABŞ dolları |
| "QLAF DRİLLİNQ SAPLAY FZE" şirkətinin Azərbaycan Respublikasındakı Filialı | **4,6 milyon** ABŞ dolları |
| "AZƏRBAYCAN ŞƏKƏR İSTEHSALAT BİRLİYİ" MMC | **3,9 milyon** ABŞ dolları |

## QEYRİ-NEFT SEKTORU ÜZRƏ İLK ONLUQDA TƏMSİL OLUNAN
## DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2018 İXRAC İCMALI APREL



| | |
|---|---|
| "MARKETİNQ VƏ İQTİSADİ ƏMƏLİYYATLAR İDARƏSİ" | **47,7 milyon** ABŞ dolları |
| "AZƏRENERJİ" ATSC | **33,7 milyon** ABŞ dolları |
| "DET-AL ALÜMİNİUM" MMC | **26,5 milyon** ABŞ dolları |
| "AZERGOLD" QSC | **6,7 milyon** ABŞ dolları |
| "AZƏRBAYCAN HAVA YOLLARI" QSC | **4,5 milyon** ABŞ dolları |
| "SOCAR METHANOL" MMC | **2,1 milyon** ABŞ dolları |
| "ƏRZAQ MƏHSULLARININ TƏDARÜKÜ VƏ TƏCHİZATI" ASC | **2,1 milyon** ABŞ dolları |
| "QAZ İXRAC İDARƏSİ" | **600 min** ABŞ dolları |
| "AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC | **368, 4 min** ABŞ dolları |
| "SURAXANI MAŞINQAYIRMA ZAVODU TÖRƏMƏ" | **297, 4 min** ABŞ dolları |

# 2018-Cİ İLİN I RÜBÜNDƏ "AZƏRKOSMOS" ASC 3,4 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR





## XİDMƏT İXRACI HƏYATA KEÇİRİLƏN ÖLKƏLƏR:

- Fransa
- BƏƏ
- Almaniya
- Gürcüstan
- Çin
- Misir
- Türkiyə
- Qırğızıstan
- Birləşmiş krallıq
- Ukrayna
- Rusiya
- Kipr
- CAR
- Tanzaniya
- Livan
- İran
- Polşa
- İran





2018-ci ilin **YANVAR-MART AYLARINDA** Azərbaycana gələn xarici vətəndaşların **BANK KARTLARI VASİTƏSİ İLƏ** **296,7** milyon manatlıq əməliyyat aparmışlar.

2018-ci ilin yanvar-mart ayları ərzində Azərbaycana dünyanın 151 ölkəsindən 629,4 min və ya ötən illin müvafiq dövrü ilə müqayisədə 12,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 29,6 faizi yanvar, 26,4 faizi fevral, 44,0 faizi isə mart ayında ölkəyə gəlmişdir. Mart ayında ölkəmizə gələnlərin 25,8 faizini İran vətəndaşları təşkil etmiş və onların sayı ötən ilin mart ayında gələnlərdən 4,6 faiz çox olmuşdur.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən cari ilin yanvar-mart aylarında Körfəz ölkələrindən (İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilmişdir. Ötən ilin yanvar-mart ayları ilə müqayisədə ölkəmizə gələn Küveyt vətəndaşlarının sayı 7,1 dəfə, Bəhreyn və Qətər vətəndaşlarının sayı hər biri üzrə 2,7 dəfə, Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 2,4 dəfə, Oman vətəndaşlarının sayı 1,9 dəfə, İraq vətəndaşlarının sayı 1,7 dəfə, Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı 1,3 dəfə artmışdır.

Ölkəmizə gələn xarici vətəndaşların sayında baş verən artım həm də, onların xərcləmələrində özünü büruzə vermişdir. Belə ki, 2018-ci ilin mart ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların 105,8 milyon manat təşkil etmiş və ötən ilin mart ayı ilə müqayisədə 16 faiz artmışdır.

Ümumiyyətlə, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-mart ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri 18 faiz artaraq 296,7 milyon manat təşkil etmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN
# BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR

## 2016-cı il

Yanvar ayı
**28,2 milyon** AZN

Fevral ayı
**36,7 milyon** AZN

Mart ayı
**40,6 milyon** AZN

## 2017-cı il

Yanvar ayı
**86,8 milyon** AZN

Fevral ayı
**72,5 milyon** AZN

Mart ayı
**91,1 milyon** AZN

## 2018-cı il

Yanvar ayı
**99,8 milyon** AZN

Fevral ayı
**91,1 milyon** AZN

Mart ayı
**105,8 milyon** AZN



3

# AZEXPORT.AZ PORTALINA 2018-Cİ İLİN I RÜBÜNDƏ 185,6 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Cari ilin mart ayında portala daxil olan ixrac sifarişlərinin dəyəri isə **66,5** milyon ABŞ dolları təşkil etmişdir

2018-ci ilin mart ayı ərzində Azexport.az portalına 66,5 milyon ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olmuşdur. Ümumilikdə isə 2017-ci ilin yanvar ayından 2018-ci ilin 31 mart tarixinə kimi Azexport.az portalına dünyanın 90 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 660,6 milyon ABŞ dolları təşkil etmişdir.

2018-ci ilin I rübündə portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (18,4%), İran (6,9%), ABŞ(6,9%), Türkiyə (6,3%) və Ukrayna (4,6%) qərarlaşmışdır.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olmuşdur ki, cari ilin mart ayında ən çox ixrac sifarişi şərab, yumurta, nar şirəsi, alma üçün gəlmişdir. Həmçinin findıq ləpəsi, qənnadi məhsulları, pomidor, buğda kəpəyi, makaron, çay, zəfəran, pambıq yağı, tibbi tənzif, dekorativ güllər, konservləşdirilmiş ət, mühərrik yağı, tikinti materialları və s. mallara da sifariş daxil olmuşdur.

Cari ilin I rübündə daxil olan ixrac sifarişlərinin 48,8 faizi alibaba.com və 23,9 faizi all.biz portalları vasitəsi ilə reallaşmışdır.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

# **AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ

AZEXPORT.AZ 2018

**2017-ci il ərzində**

**475 milyon** ABŞ dolları

**2018-ci ilin**

YANVAR ayında
**81,5 milyon** ABŞ dolları

FEVRAL ayında
**37,6 milyon** ABŞ dolları

MART ayında
**66,5 milyon** ABŞ dolları



**03/06** **2018**

01 02 03 04 05 06

# 2018-Cİ İLİN MART AYINDA **AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2018 İXRAC İCMALI APREL



# 2018-Cİ İLİN I RÜBÜNDƏ AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ (%)




03/06 2018

01 02 03 04 05 06




Azərbaycanda ilk dəfə
## SƏRBƏST SATIŞ SERTİFİKATININ
verilməsinə başlanılmışdır

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) Azexport.az portalı vasitəsi ilə Sərbəst Satış Sertifikatı təqdim olunmuşdur. İlk olaraq sertifikat 4 şirkətə - "Gazelli Group", "Apiaz" MMC ("Ballı" brendi ), "Aznar" QSC, "Brightman" MMC ("Zıra" brendi) verilmişdir. Onlar bu sertifikat sayəsində öz məhsullarının Ərəb ölkələri və ABŞ bazarına ixracı edəcəklər.

Azexport.az internet portalının rəhbəri Zaur Qardaşov bildirmişdir ki, Sərbəst Satış Sertifikatı beynəlxalq ticarətdə nisbətən yeni tətbiq olunan nəzarət tənzimləmə mexanizmidir: "Sertifikat bir çox ölkələrdə icbari xarakter daşıyır və insan orqanizmi ilə təmasda olan qida, kosmetika, tekstil, tibbi cihazlar, gigiyenik vasitələr və s. məhsulların dövriyyəsində təhlükəsizliyin təmin edilməsi üçün tətbiq edilir".

Zaur Qardaşovun sözlərinə görə, Sertifikatın mahiyyəti həm də ondan ibarətdir ki, hökumət tərəfindən ölkədə sertifikatı verən rəsmi orqan müəyyən edilir. Azərbaycanda bu rəsmi orqan Prezident sərəncamına uyğun olaraq, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi təyin edilmişdir.

Qeyd edək ki, Sertifikatın verilməsi üçün aşağıdakı sənədlər tələb edilir:

- Şirkətin qeydiyyat şəhadətnaməsi;
- Sərbəst satış sertifikatı tələb olunan malların siyahısı;
- Keyfiyyət sertifikatı;
- Malların uyğunluq sertifikatı;
- (Qanunla nəzərdə tutulduğu halda) malların istehsalı üçün lisenziya;
- Beynəlxalq eyniləşdirmə nömrəsi - barkod (əgər varsa);
- Ölkə ərazisində malların satışının təsdiqi (2-3 müştəriyə, faktura, çek və ya vergi hesab-faktura).

Məlumat üçün bildirək ki, Azərbaycan MDB məkanında bu tip sertifikatı təqdim edən 3-cü ölkədir. Azərbaycan ixracatçılar Sərbəst Satış Sertifikatını elektron formada və ya kağız daşıyıcıda əldə edə bilərlər. Sərbəst Satış Sertifikatı üçün müraciətlər onlayn qaydada qəbul olunur.

Azərbaycan ixracatçıları Azexport.az internet portalı vasitəsi ilə onlayn qayda Sərbəst Satış Sertifikatı ilə yanaşı onlayn vahid ixrac ərizəsi ilə müraciət edərək ixrac üçün lazım olan bütün sənədləri əldə edə bilərlər.



# XARİCİ TİCARƏTİN APARILMASI

## ONLAYN VAHİD İXRAC ƏRİZƏSİ

**"Onlayn Vahid İxrac Ərizəsi"** öz məhsullarını ixrac etmək istəyən şəxslərə bir ərizə vasitəsilə bir neçə icazə və lisenziyaları əldə etməyə şərait yaradır. Məlumatın bir dəfə daxil olunması şərti ilə ixracatçı Mənşə, Keyfiyyət, Fitosanitar və Sərbəst Satış sertifikatlarını əldə edə bilər və gömrük bəyannaməsi ilə ixrac təşviqi ərizəsinin doldurulmasını "Azexport.az" həvalə edə bilər.

**https://dth.azexport.az/**

ONLAYN VAHİD İXRAC ƏRİZƏSİ

1. "Onlayn Vahid İxrac Ərizəsi" üçün vətəndaş Rəqəmsal Ticarət Qovşağına daxil olur.
2. "Onlayn Vahid İxrac Ərizəsi" bölməsində bütün zəruri məlumatları doldurur.
3. Sistem avtomatik olaraq ixrac üçün tələb olunan sənədlərin siyahısını təqdim edir.
4. İxracatçı siyahıdan ona lazım olan sənədləri seçir.
5. Ərizə ilə davam etmək üçün "İrəli" düyməsinə basır.
6. Sənədlərin əldə edilməsinin məntiqi ardıcıllığına uyğun olaraq şəxsi kabinetə daxil olur və ixrac paketi tamamlanır.

DOING BUSINESS – İSLAHATIN NƏTİCƏSİ

- İxrac sənədlərinin əldə olunması üçün tələb olunan vaxtı qısaldır. Hər ərizənin doldurulmasına təxminə 5 dəqiqə vaxt sərf edilir.
- Xidmət tamamilə ödənişsizdir. İxrac paketinin formalaşması üçün çəkilən xərclər minimuma endirilmişdir.

**Hüquqi əsası:** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda dəyişikliklər;
"Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanı;
"Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanı.

4

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ FİZİKİ VƏ HÜQUQİ ŞƏXSLƏRƏ XİDMƏT GÖSTƏRİR

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzi Azərbaycan sahibkarlarının ənənəvi və yeni bazarlara çıxarılması imkanlarını artırmasına və “Made in Azerbaijan” brendinin təşviqinə töhfə verməkdədir. 2018-ci ilin aprel ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə fiziki və hüquqi şəxslər tərəfindən yüzlərlə müraciət olunmuşdur. “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə müraciət edən fiziki və hüquqi şəxslər həm ixrac prosedurları barədə müvafiq məlumat, həm də ixrac üçün ehtiyac olan sertifikat və icazələri (mənşə sertifikatı, fitosanitar sertifikat, CITES icazə/sertifikatı və s.) almışlar. “Bir Pəncərə” İxraca Dəstək Mərkəzininin xidmətindən faydalanan şirkələr arasında “Baku Steel Company”, “Holcim”, “Kainat-İ”, “SEN-İnşaat”, “Food Export Şəmkir” və digərləri var.

Cari ilin aprel ayında Azərbaycan sahibkarlarına əsasən meyvə-tərəvəz, polad borular, boyalar, qurğuşun külçələri, kartof çipsiləri, butulka qapaqları, portland klinker, sement, politilen borular, qiymətli metal külçələr, balıq, polad pəstah, mebel, yivli keçidlər,  yer alması, gəmi ləvazimatı və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar dünyanın müxtəlif ölkələrinə ixrac olunmuşdur.



# 5

# İXRACATÇILAR KLUBUNUN NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR

Aprelin 17-də Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin dəstəyi, AZPROMO-nun təşkilatçılığı ilə İxracatçılar Klubunun növbəti iclası və "Made in Azerbaijan" brendinin təşviqi mexanizmləri ilə bağlı 100-ə yaxın sahibkarın iştirakı ilə seminar keçirilmişdir.

AZPROMO-nun vitse-prezidenti Yusif Abdullayev İxracatçılar Klubunun Azərbaycan məhsullarının xarici bazarlara ixrac edilməsində istehsalçılara dəstək göstərmək və ixracatçılar arasında daimi ünsiyyət platformasını formalaşdırmaq məqsədilə yaradıldığını qeyd edərək, sahibkarlara göstərilən dəstək mexanizmləri barədə məlumat vermişdir. Vurğulanmışdır ki, rəqabətqabiliyyətli məhsul istehsalı, ixracın diversifikasiyası, qeyri-neft məhsullarının ixracının genişləndirilməsi qarşıya qoyulmuş prioritet vəzifələrdəndir. Bu məqsədlə ölkəmizdə qeyri-neft sektorunun ixrac imkanlarının genişləndirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirilir.

Tədbirdə sahibkarların sorğusu əsasında xarici ölkələrdə müxtəlif məhsullar üzrə aparılmış bazar araşdırmalarının nəticələri sahibkarlara təqdim edilmişdir.

Seminarda "Made in Azerbaijan" brendinin təşviqi mexanizmləri ilə bağlı yeni qaydaların üstünlükləri diqqətə çatdırılmış, bu barədə AZPROMO-nun İxracın Təşviqi Departamentinin direktoru Fuad Cəfərovun təqdimatı dinlənilmişdir.

# 6

# BAL İXRACI İLƏ BAĞLI ARAŞDIRMA APARILMIŞDIR

Kənd Təsərrüfatı Nazirliyinın icmallaşdırma və statistik təhlil şöbəsi tərəfindən Azərbaycandan bal ixracı imkanları ilə bağlı araşdırma aparılmışdır. Araşdırmada göstərilir ki, ərzaq, kosmetika və dərman sənayesində bala tələbat artmadadır. Bunun üçün də 2022-ci ildə satış məqsədi üçün bal istehsalının həcmi 2,4 mln. tona çatacaq. FAO-nun məlumatına əsasən 2014-cü ildə təbii bal istehsal edən 139 ölkədə hər il təqribən 1,5 mln. ton təbii bal istehsal edilir.

Global Industry Analists, Inc. (GIA) konsaltinq şirkətinin məlumatına əsasən təbii balın ümumi istehlakının 48,1%-i Asiya-Sakit okean regionunun payına düşür.

Araşdırmada qeyd edilir ki, 2016-cı ildə Ukrayna 97,3 milyon dollar dəyərində 56,9 min ton bal ixrac edərək, Çindən sonra ən iri bal ixracatçısı olmuşdur. Ümumilikdə isə 2016-cı ildə dünyada 2.0 milyard ABŞ dolları dəyərində bal idxal olunmuşdur. Həmin il dünya üzrə bal idxalının 21%-i (166 min ton) ABŞ-ın payına düşmüşdür.

Dünya üzrə balın orta idxal qiyməti 3000 ABŞ dolları ətrafındadır.

Azərbaycana gəldikdə isə 2016-cı ildə Azərbaycanda 2,7 min ton bal istehsal olunmuşdur. Son illər Azərbaycanda bal ixracı ənənəsi yaranmışdır və 2016-cı ildə 6 ton bal ixrac olunmuşdur. **2016-cı ildə Azərbaycandan ixrac olunan 1 ton balın orta qiyməti 8 min ABŞ dolları olmuşdur, bu isə dünya üzrə orta idxal qiymətindən 2.5 dəfə yüksəkdir. 2017-ci ildə isə 6,5 ton bal ixrac olunmuş və ixrac edilən balın 1 tonunun orta qiyməti 8,4 min ABŞ dolları təşkil etmişdir.** 2017-ci ildə

Azərbaycandan təbii bal Yaponiya, Qətər və Birləşmiş Ərəb Əmirliklərinə ixrac edilmişdir.

Araşdırmada vurğulanır ki, Azərbaycanda istehsal olunan balın xüsusiyyətləri onun "niş" və ya "premium" bazarlara ixracına imkan verir. Azərbaycan balı "Eko" (BİO) və ya "Orqanik" məhsul kimi dünya bazarında özünə yer tuta bilər.

Bu bazarlara Avropa ölkələri, Körfəz ölkələri, Yaponiya və Çin aiddir. Avropanın "niş" bazarlarında satılan balın payı ümumi Avropa bal bazarının 15-20 faizini əhatə edir. Həmçinin Çində istehlakçıların premium bal məhsullarına verdiyi dəyəri nəzərə alaraq bu ölkənin də bazarı da cəlb edici hesab edilə bilər.



Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reystrinə daxil edilmişdir.



iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 33 18
info@ereforms.org